# ATU Göygöl Milli Parkında beynəlxalq konfrans keçirilmişdir

**Azərbaycan Texnologiya Universiteti "Urbanizasiya və sənayeləşmə şəraitində biomüxtəlifliyin qorunması" adlı beynəlxalq konfransı ecakar təbiətə, füsunkar gözəlliyə malik Göygölün yaranmasının 877 illiyinə həsr olunduğu üçün Göygöl Milli Parkında keçirmişdir. Azərbaycan Texnologiya Universiteti və İstanbul Texniki Univesitetinin birgə təşəbbüsü ilə reallaşan beynəlxalq konfransın təşkilatçıları arasında Təhsil Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Gəncə Şəhər İcra Hakimiyyətinin nümayəndələri, Respublikamızın nüfuzlu universitetlərinin rəsmiləri və tanınmış alimləri, 10 xarici ölkədən 30-dan artıq elm xadimi də iştirak edirdi.**



Konfransı giriş sözü ilə açan ATU-nun rektoru, professor Akif Süleymanov tədbir iştirakçılarını salamlayaraq qeyd etdi ki, müasir davamlı inkişaf konsepsiyalarında təbiətin mühafizəsi və ekoloji problemlərin həll edilməsi ən mühüm amillərdən biri kimi daim diqqət mərkəzində saxlanılır. Ətraf mühitin vəziyyətini və davamlılığını qiymətləndirən ən obyektiv amillərdən biri isə biomüxtəlifliyin qorunub saxlanmasıdır. Bu gün Azərbaycan dünyanın ən zəngin biomüxtəlifliyi olan ölkələrindən biridir. Buna görə də biomüxtəlifliyin antropogen və texnogen amillərdən, eləcə də digər təsirlərdən qorunması həm regional, həm də qlobal əhəmiyyət daşıyır.

ETSN-nin sektor müdiri Bəhruz Məmmədov çıxış edərək qeyd etdi ki, təbiət ərazilərinin qorunmasının ən əsas və geniş yayılmış formalarından biri milli parkların yaradılmasıdır. Bu baxımdan Azərbaycanda kifayət qədər təcrübə toplanıb, ölkədə xüsusi mühafizə olunan təbiət əraziləri və obyektlərinin yaradılması bu ərazidə biomüxtəlifliyin qorunması üçün olduqca böyük əhəmiyyətə malikdir. 2008-ci ildə Prezident İlham Əliyevin sərəncamı ilə Göygöl Milli Parkının yaradılması da ölkəmizdə təbii zənginliklərin qorunmasına verilən əhəmiyyəti bir daha sübut edir.

Sonra "İDEA" İctimai Birliyinin "Azərbaycanın 9 möcüzəsi" adlı layihəsi çərçivəsində çəkilmiş "Göygöl Milli Parkı" sənədli filmi konfrans iştirakçılarına təqdim edildi.

İstanbul Universitetinin rektoru Mahmut Ak, Azərbaycan Dövlət İqtisad Universitetinin (ADİU) rektoru Ədalət Muradov, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) rektoru Mustafa Babanlı, eləcə də xarici ölkələrdən gəlmiş bir sıra elm xadimləri də çıxışlarında biomüxtəliflik və ekoloji sabitliyin qorunmasının əhəmiyyətindən danışıb, bu sahədə müntəzəm əməkdaşlığın zəruriliyini diqqətə çatdırdılar.

Türkiyənin ən böyük ali təhsil ocağı olan İstanbul Universitetinin rektoru Mahmut Ak konfransa xatirə hədiyyəsi təqdim etdi. Qonaqlar Milli parkdan böyük təəssüratla ayrıldılar.

Konfrans növbəti gün öz işini Azərbaycan Texnologiya Universitetində mövzu ətrafında çıxışlar, müzakirələr və məruzələrlə davam etdirdi.

Sonda beynəlxalq konfransın adından qətnamə qəbul olundu.

**Zabit XƏLİLOV,**
**"Respublika".**